


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 126 (23.768)

*14 iyul 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



İyulun 13-də Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin onlayn formatda aralıq konfransı keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub. Çıxışda yaranmasının 60 illiyi qeyd edilən Qoşulmama Hərəkatının təməlində sülh, multilateralizm və qlobal həmrəyliyin möhkəmləndirilməsi dayandığından, 2019-cu ilin oktyabr ayında Azərbaycanın Bakıda Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünü uğurla təşkil etməsindən bəhs olunub.

Dövlətimizin başçısı bildirib ki, 2020-ci il Azərbaycan üçün əlamətdar il olub, qırx dörd günlük müharibə nəticəsində Azərbaycan 30 illik münaqişəyə son qoyub, hərbi-siyasi yollarla özünün ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib. Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. Azərbaycanın şanlı Qələbəsi beynəlxalq hüququn, ədalətin və Qoşulmama Hərəkatı dəyərlərinin təntənəsidir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib. Söhbət zamanı Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin sədrliyi ilə üçtərəfli İşçi qrupunun fəaliyyəti ilə bağlı məsələlər müzakirə edilib. Həmçinin Azərbaycan-Rusiya ikitərəfli əlaqələrinə toxunulub, ticarət, iqtisadiyyat, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## A.V.Cabbarovun Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azad Vaqif oğlu Cabbarov Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 13 iyul 2021-ci il*

## Ordubad rayonunda kompleks quruculuq işləri aparılır

1969-cu il iyulun 14-də ümummilli liderimiz Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanda bütün sahələrdə böyük uğurlar qazanılmış, ölkənin gələcək müstəqilliyinin təməli qoyulmuşdur. Ulu öndərin əsasını qoyduğu sürətli sosial-iqtisadi inkişaf xətti bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Hər il dahi şəxsiyyətin siyasi xəttinin bəhrəsi olan yeni inzibati binalar, istehsal sahələri və sosial obyektlər istifadəyə verilir, muxtar respublikamızın bütün bölgələri inkişafın yeni mərhələsinə qovuşur. Görülən işlərin davamı olaraq ulu öndərin “Azərbaycanın incisi” adlandırdığı Ordubad rayonunun Vələver, Dırnıs, Kələki, Unus və Pəzməri kəndlərində kompleks quruculuq tədbirləri həyata keçirilir.

## Vələver, Dırnıs və Kələki kəndlərində əhalinin rahatlığı üçün müasir şərait yaradılır





Vələver, Dırnıs və Kələki kəndləri həyata keçirilən quruculuq tədbirləri ilə muxtar respublikanın müasir kəndləri sırasına qoşulur. Tikintisi aparılan yeni məktəb binaları, kənd və xidmət mərkəzləri sakinlərin rahatlığına xidmət etməklə yanaşı, həm də kəndlərin ümumi mənzərəsinə yeni gözəlliklər əlavə edəcəkdir.

İyulun 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Vələver kəndində inşa olunan sosial obyektlərdə aparılan tikinti işlərinə baxmışdır.

Bildirilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq 198 şagird yerlik yeni məktəb binasının tikintisi davam etdirilir. Müasir standartlara cavab verəcək təhsil ocağında nümunəvi şərait yaradılacaqdır. Burada kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər otağı, psixoloq otağı, STEAM kabinəsi, kitabxana, qarderob, idman zalı, bufet və digər texniki otaqlar nəzərdə tutulmuşdur.



Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, baytarlıq və polis sahə məntəqələri, kitabxana, poçt bölməsi, rabitə, statistika otağı, eləcə də klub fəaliyyət göstərəcəkdir. Yeni feldşer-mama məntəqəsi isə tibbi xidmətin keyfiyyətini daha da artıracaqdır. Tikintisi aparılan xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları və anbar yerləşəcəkdir.

Sonra Ali Məclisin Sədri Dırnıs kəndinə gəlmiş, aparılan quruculuq işləri ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, Dırnıs kəndində 216 şagird yerlik məktəb binası əsaslı şəkildə yenidən qurulur, müasir xidmət və kənd mərkəzləri, həkim ambulatoriyası tikilir. Təhsilin müasir tədris metodları səviyyəsində tədris olunmasına imkan verəcək məktəb binasında laboratoriyalar, şahmat, kompüter otaqları, hərbi kabinə, elektron lövhəli siniflər, kitabxana, idman zalı yerləşəcək, ətrafda yaşıllıqlar salınacaqdır. Dırnıs Kənd Mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəliklə yanaşı, digər dövlət qurumları üçün də otaqlar yerləşəcəkdir. Əhalinin sağlamlığında mühüm əhəmiyyətə malik olacaq yeni həkim ambulatoriyasında kənd sakinlərinin sağlamlığı qorunacaq, eyni zamanda vaxt itkisinin qarşısı alınacaqdır. Kənd sakinlərinin rahatlığını təmin edəcək xidmət mərkəzində istehlakçıların gündəlik tələbatı nəzərə alınmaqla daha çox yerli kənd təsərrüfatı məhsullarının satışı həyata keçiriləcəkdir.

Muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərindən Kələki kəndinə də pay düşmüşdür. Görülən bu işlər dövlətimizin insan amilinə verdiyi dəyərin ifadəsidir.

Ali Məclisin Sədri həmin gün Kələki kəndində də olmuş, quruculuq işlərinin gedişi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, kənddə kənd və xidmət mərkəzləri tikilir. Burada dövlət qurumlarının müasir binada fəaliyyət göstərməsi kənd sakinlərinin rahatlığına xidmət edəcəkdir. Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, baytarlıq və polis sahə məntəqələri, kitabxana, poçt bölməsi, rabitə evi, arxiv, eləcə də klub fəaliyyət göstərəcəkdir. Kənd mərkəzində feldşer-mama məntəqəsinin fəaliyyəti üçün də şərait yaradılır. Ərazidə yaşıllaşdırma işləri həyata keçiriləcəkdir.

*Ardı 2-ci səhifədə*

## Vənənd-Pəzməri avtomobil yolu yenidən qurulur



Muxtar respublikanın kəndlərində aparılan quruculuq işlərinin ən mühüm cəhətlərindən biri də yolların abadlaşdırılmasıdır. Görülən işlərin davamı olaraq Vənənd-Pəzməri avtomobil yolu yenidən qurulur.

İyulun 13-də Ali Məclisin Sədri avtomobil yolunda görülən işlərlə tanış olmuşdur.

Bildirilmişdir ki, ümumi uzunluğu 20 kilometr olan yolun eni 8 metrdir. Yolda 3 körpü əsaslı təmir olunub, 2 suötürücü kanal tikilib, su keçidləri və 8800 metr suaparıcı kanalın qurulmasına başlanılıb. Həmçinin burada istinad divarları tikilir, torpaqbərkitmə işləri görülür. Yoldakı qayalar texnika vasitəsilə dağıdılaraq yol yatağı genişləndirilir. Başkənd, Vələver, Qoruqlar, Anaqut, Dırnıs, Kələki, Unus, Pəzməri kənddaxili yollarına isə qum-çınqıl qatı verilir.

## Quruculuq tədbirləri turizm bölgəsi olan Unus və Pəzmərinin inkişafına töhfədir





Ordubad rayonunun dağlıq kəndlərində aparılan quruculuq tədbirləri çərçivəsində turizm kəndləri olan Unus və Pəzməri də inkişafın yeni mərhələsinə qədəm qoyur.

İyulun 13-də Ali Məclisin Sədri Pəzməri kəndində görülən işlərlə maraqlanmışdır.

Bildirilmişdir ki, 2 mərtəbədən ibarət olacaq məktəb binasında nümunəvi şərait yaradılacaqdır. Burada kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər, psixoloq otağı, STEAM kabinəsi, elektron lövhəli sinif, kitabxana, qarderob, idman zalı və digər texniki otaqlar yerləşəcəkdir. Dövlət qurumlarının birgə fəaliyyətində mühüm əhəmiyyətə malik olacaq kənd mərkəzində tikinti işləri keyfiyyətlə aparılır. Binada fəaliyyət göstərəcək feldşer-mama məntəqəsində yaradılan şərait kənd əhalisinin sağlamlığının qorunmasına, peyvəndlərin vaxtında vurulmasına imkan verəcəkdir. Xidmət mərkəzində isə bərbərxana, ət satışı yeri, ərzaq mağazası fəaliyyət göstərəcəkdir. Burada xidmət sahələrinin fəaliyyəti üçün nümunəvi şərait yaradılacaq, sakinlər işlə təmin olunacaqdır.



Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, Unus kəndində də quruculuq işləri həyata keçirilir. Kənddə kənd və xidmət mərkəzləri tikilir.

Unus kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Natiq Hacıyev demişdir: "Vaxtilə bu kəndlərdə elektrik enerjisi, təbii qaz, yol infrastrukturu yox idi. İndi isə kəndlər tamamilə qazlaşdırılıb, fasiləsiz elektrik enerjisi ilə təmin olunub, yollar abadlaşdırılıb. 70 il Sovetlər Birliyi dönəmində kəndlərimizə göstərilməyən qayğı Ali Məclis Sədrinin rəhbərliyi ilə qısa zamanda öz həllini tapdı. Bunun üçün bütün kənd sakinləri adından minnətdarlığımı bildirirəm".

Ali Məclisin Sədri demişdir: Kəndlərdə quruculuq işləri ona görə aparılır ki, insanlar rahat və firavan yaşasınlar. Həyata keçirilən tədbirlər məskunlaşmanı da artıracaqdır. Artıq Pəzməri turistik bölgəyə çevrilir. Kəndə turist axını sakinlərin istehsal etdiyi məhsulların alınmasına da səbəb olacaqdır ki, bu da əhalinin güzəranının daha da yaxşılaşması ilə nəticələnəcəkdir.

Ali Məclisin Sədri kəndlərdə tikinti işlərinin keyfiyyətlə aparılması barədə tapşırıqlar vermişdir.

Sonra Ali Məclisin Sədri gözəlliyi ilə turistləri cəlb edən Pəzməri şəlaləsinin yerləşdiyi ərazidə olmuş və Pəzməridən şəlaləyə gedən yolun yenidən qurulması barədə tapşırıq vermişdir.

* * *

Həmin gün Ali Məclisin Sədri Anaqut kəndi ərazisində inşa edilən "Xan Çinar" İstirahət Mərkəzində də olmuş, görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, mərkəzdə istirahətin səmərəli təşkili üçün ikimərtəbəli kortejlər, uşaqların istirahətlərini mənalı keçirmələri üçün attraksionlar, istirahət guşələri, kupelər və restoran vardır.

Ali Məclisin Sədri istirahət mərkəzinə gedən yolun abadlaşdırılması, ərazidə yaşıllıqların artırılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "14 iyul 1969-cu il: milli intibahın və tərəqqinin başlanğıc tarixi" mövzusunda tədbir



Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı və Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti ərazi ilk partiya təşkilatının təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov qeyd edib ki, 1969-cu ilin 14 iyulu respublikamızın tarixində dönüş günü, xalqımızın yaddaşında ən şərəfli gün kimi qalır. Bildirilib ki, respublikamızın mədəni, iqtisadi yüksəlişində, xalqımızın rifah halının yaxşılaşdırılmasında, indiki müstəqil dövlətimizin təməlinin qoyulmasında həmin günün müstəsna rolu olub.

YAP Naxçıvan Dövlət Universiteti ərazi ilk partiya təşkilatının sədri Arzu Abdullayev bildirib ki, 14 iyul Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Vurğulanıb ki, dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradan ümummilli liderimizin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı siyasi təqvimimizdə özünəməxsus yerə malikdir.

YAP Naxçıvan Muxtar Respublika Təşkilatının şöbə müdiri Rail Tağızadə "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu", Naxçıvan Dövlət Universitetinin Ümumi tarix kafedrasının müəllimi Emin Məmmədov "Yeni milli intibahın və müstəqil dövlətçiliyin əsasını qoymuş tarixi şəxsiyyət" mövzusunda məruzə ediblər.

Sonra Yeni Azərbaycan Partiyası sıralarına yeni üzv qəbul edilmiş gənclərə üzvlük vəsiqələri təqdim olunub. Tədbirin davamında Naxçıvan Dövlət Universitetinin tələbələrinin hazırladığı bədii kompozisiya nümayiş etdirilib. Sonda Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Böyük liderlik missiyası" filminə baxış olub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## İqtisadi inkişaf üçün dövlət maliyyə dəstəyi qoyuluşu artırılıb

Muxtar respublika iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafı cari ilin ötən dövründə də davam etdirilmiş, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşmış, yeni iş yerləri açılmış, əhalinin maddi rifah halı yüksəlmişdir. Cari ilin 6 ayı ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 3 layihənin maliyyələşdirilməsinə 110 min manat, kənd təsərrüfatının inkişafı yönümlü 56 layihənin maliyyələşdirilməsinə isə 1 milyon 404 min manat məbləğində dövlət maliyyə dəstəyi göstərilmişdir. Həmçinin "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit vəsaiti hesabına ümumi tutumu 800 ton olan yeni soyuducu anbarın yaradılması başa çatdırılmışdır.

Muxtar respublikada daxili bazarın daha keyfiyyətli və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları ilə təminatı məqsədilə 34 ailə təsərrüfatına 519 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmişdir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari ilin ötən dövrü ərzində 60 layihənin maliyyələşdirilməsinə 1 milyon 542 min manat həcmində dövlət maliyyə dəstəyi ayrılmışdır. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi məqsədilə xüsusi fəaliyyət növləri üzrə 730 lisenziya verilmişdir. İnvestisiya qoyuluşu və ixracın stimullaşdırılması məqsədilə 3 milyon 108 min 212 manat dəyərində bir investisiya layihəsi üzrə investisiya təşviqi və təsdiqedici sənədi verilmişdir.

**Xəbərlər şöbəsi**

## 14 iyul 1969-cu il qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gündür

***Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev dövrünün müstəsna yeri vardır. Bu dövr öz başlanğıcını 1969-cu il 14 iyul tarixindən götürür. Məhz xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəldiyi həmin gün müstəqil və qüdrətli Azərbaycan dövlətinin əldə etdiyi bütün uğurların təməl tarixi kimi xatırlanır. Bu tarix həm də Azərbaycanın yad ünsürlər içərisində assimilyasiyasının xilası, xalqın özünəqayıdışının başlanğıcıdır.***

Ulu öndər Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra respublikanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində yeni bir dövr başlanmışdır. Dahi şəxsiyyət hakimiyyətə gəlişi ilə milli düşüncəni oyatmış, illər sonra qurulacaq müstəqil Azərbaycanın potensial bazasını yaratmışdır. Həmin dövr tamamilə fərqli şərtlərin diktə olunduğu dövr olsa da, dahi şəxsiyyət öz şəxsi bilik və bacarığı sayəsində irəlilədiyi vəzifə pillələrində artıq xalqının gələcək mövcudluğu üçün yeni şərtlərin yaradılmasının özü üçün milli vəzifə olduğunu qətiləşdirmişdir. Təsadüfi deyil ki, bu gün bir çox tarixçi və siyasətçilər haqlı olaraq qeyd edirlər ki, Azərbaycan xalqının XX əsrdəki milli qurtuluşu, əslində, 1969-cu il iyulun 14-dən başlanır. İqtisadi çətinliklərlə müşayiət olunan həmin dövr həm də yeraltı və yerüstü sərvətləri ilə zəngin olan Azərbaycanın öz sahib olduqlarından yararlana bilməməsi, ittifaq tərkibində olan digər respublikalardan ən geridə qalması ilə fərqlənirdi. Ulu öndər Heydər Əliyev o dövrü belə xarakterizə edirdi: ***"Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı, bütövlükdə, dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".***

1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilmişdir. Ulu öndərin Azərbaycanda hakimiyyətdə olduğu 1969-1982-ci illərdə respublikamızda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdır. 1970-ci ildə mütəxəssislər qeyd edirdilər ki, son 100 ildə 1 milyard ton neft istehsal etmiş, İkinci Dünya müharibəsi illərində SSRİ-nin neftə olan ehtiyacının 75 faizini vermiş Azərbaycanın neftayırma zavodları hələ çar dövründə inşa edildiyinə görə müasir tələblərlə ayaqlaşmır. Buna görə də ulu öndər Heydər Əliyev SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldırmış və Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, bir çoxunun isə yenidən tikilməsinə nail olmuşdur. Bununla yanaşı, 70-ci illərdə Bakıda, Naxçıvanda, Xankəndidə, Gəncədə, Mingəçevirdə, Lənkəranda bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verilmişdir. 1970-1982-ci illərdə Azərbaycandakı fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki illərdə tikilən müəssisələrin sayından qat-qat çox idi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanmışdı.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ən diqqətçəkən məqamlardan biri də respublikamızda milli kadrların yetişdirilməsi ilə bağlı atdığı böyük addımlar idi. Ulu öndər gözəl bilirdi ki, bir ölkənin inkişafı savadlı, bilikli kadrlar olmadan mümkün deyil. 1969-cu ilə qədər Azərbaycanda rəhbər vəzifələrin böyük əksəriyyətində qeyri-azərbaycanlılar təmsil olunurdu. Hətta respublika üçün mühüm əhəmiyyət daşıyan strateji strukturlarda belə, səlahiyyət sahiblərinin çoxu başqa millətlərin nümayəndələri idi. Dahi şəxsiyyətin Azərbaycanda savadlılığın artırılması yolunda gördüyü böyük işlərin nəticəsi idi ki, əgər 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli liderin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılmış, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılmışdır. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil almışdır. Onların əksəriyyəti bu gün ölkəmizin inkişafı üçün müxtəlif sahələrdə fəaliyyət göstərirlər.

Dahi və uzaqgörən şəxsiyyətin həmin dövrdə həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də respublikada milli hərbçi kadrların yetişdirilməsi istiqamətində qəbul etdiyi tarixi qərarlar və bunun nəticəsi olaraq Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması idi. O dövrdə yüzlərlə azərbaycanlı gəncin keçmiş Sovetlər Birliyində mövcud olan qabaqcıl ali hərbi məktəblərə və hərbi akademiyalara təhsil almağa göndərilməsi müstəqil dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardan biri idi. Təsadüfi deyil ki, ümummilli liderin həmin dövrlərdə başladığı hərbi quruculuq prosesi 20 il sonra müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin hərbçi kadrlarla təminatında böyük rol oynamışdır. Bu mənada, 1969-1982-ci illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Bununla yanaşı, ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövrü respublikada milli dəyərlərin bərpası dövrü kimi yaddaşlara yazılmışdır. Belə dəyərlərin ana təməlini təşkil edən milli dilin varlığı və işləkliyi, ilk növbədə, milli şüurun, milli özünüdərkin formalaşmasında başlıca vasitədir. Aydın məsələdir ki, ulu öndər 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndə bütün SSRİ məkanında rus dili hakim və rəsmi dil idi. Xalqımızın böyük oğlu tarixdə misligörünməmiş cəsarət, siyasi müdriklik nümayiş etdirərək Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunan təntənəli toplantıda Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxacağını nümayiş etdirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ulu öndərimizin milli dəyərlərin qorunması, milli şüurun oyanışı istiqamətində həyata keçirdiyi tədbirlərdən danışarkən demişdir: ***"Ötən əsrin 70-ci illərində baş vermiş proseslərin təhlili göstərir ki, ulu öndərimiz genişmiqyaslı maarifçilik təşəbbüsünü milli ruhun yüksəlişi və millətin tarixi yaddaşının bərpası vəzifələri ilə vəhdət halında götürür, Azərbaycan dilinin tədrisi məsələlərini diqqətdə saxlayırdı. Sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, akademik nəşrlərin hazırlanması, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycanın 1978-ci il Konstitusiyasına "Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir" müddəasının salınması xalqımızın böyük oğlunun misilsiz tarixi xidmətlərindəndir".***

Naxçıvan Muxtar Respublikası da ötən əsrin 70-ci illərində görülən məqsədyönlü işlər nəticəsində sürətlə inkişaf etməyə başlamışdır. Belə ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında ulu öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il 8 yanvar tarixli Qərarının mühüm rolu olmuşdur. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdir. Qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilmişdir. Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə artmışdır.

Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır. Ulu öndərin o vaxt Naxçıvanın elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynamışdır. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən blokadaya alınarkən muxtar respublika əhalisi məhz həmin enerji mənbələri hesabına həyat ritmini qoruyub saxlaya bilmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində, ölkəmizin vətəndaş müharibəsinə, hərc-mərcliyə, xaos və anarxiyaya sürükləndiyi zamanda ümummilli liderimiz növbəti dəfə canı qədər sevdiyi Azərbaycanı xilas etmiş, Naxçıvandan başlanan qurtuluş mübarizəsi Azərbaycanın əbədi müstəqilliyinə təminat vermişdir. 1990-1993-cü illərdə dahi şəxsiyyətin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə səbəb olmaqla yanaşı, milli dövlətçiliyimizin qorunması və inkişaf etdirilməsi istiqamətində də mühüm tədbirlərin həyata keçirilməsi ilə tarixə yazılmışdır. Belə ki, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikasının ali qanunvericilik orqanının da adı dəyişdirilmiş, muxtar respublikanın ictimai-siyasi həyatına yeni ab-hava gətirilmişdir. 1993-cü ilin yayında ölkəmiz milli dövlətçiliyimizin ikinci dəfə məhvolma təhlükəsi ilə üzləşəndə ulu öndər Heydər Əliyev yenidən xalqın təkidli tələbi ilə Bakıya qayıtmış və ali hakimiyyətə bu QAYIDIŞ Vətənin xilası, xalqın QURTULUŞ tarixinə çevrilmişdir. Qısa müddət sonra Azərbaycan yenidən quruculuq yoluna geri dönmüş, torpaqlarımızın işğalının qarşısı alınmış, milli ordu yaradılmış, ölkədə sabitlik təmin olunmuşdur. Görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın təbii sərvəti olan neftin xarici bazarlara çıxarılması üçün "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. 1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur. Bir sözlə, 1969-cu ildən başlanan quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirilməsi müstəqil Azərbaycanın daha da güclənməsinə səbəb olmuşdur. Bu güc Heydər Əliyev ideyalarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ölkəmizi daha da inkişaf etdirməyə, dünyada böyük nüfuz qazanmasına imkan vermişdir. Hərbi və iqtisadi baxımdan Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan ötən il erməni işğalı altında olan torpaqlarımızın azad olunması üçün illərdir, beynəlxalq qurumların həll edə bilmədiyi problemi təkbaşına həll edərək öz gücünü bir daha bütün dünyaya sübut etdi. Belə ki, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələri düşmən ordusunu diz üstə çökdürərək onu təslimçilik aktını imzalamağa məcbur etdi. Zaman ulu öndərin ***"…İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"*** fikirlərində nə qədər haqlı olduğunu bir daha göstərdi. Azərbaycanın 30 ilə yaxındır, işğal altında olan torpaqlarını qısa müddətdə azad etməklə "Ata vəsiyyətini" yerinə yetirən cənab İlham Əliyev, elə ulu öndərin Qalib Azərbaycanda ilk doğum gününü də onun doğulub boya-başa çatdığı Naxçıvanda qeyd etməklə bu Zəfərin dahi şəxsiyyət üçün nə qədər böyük mahiyyət daşıdığını ortaya qoydu. 2021-ci il mayın 10-da muxtar respublikaya səfər edən ölkə başçısının burada səsləndirdiyi ***"Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir"*** sözləri, həm də ulu öndərin ***"İstəyirəm ki, mənim arzum, istəklərim… Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin"*** ARZUsunun çin olduğunun TƏSDİQİ idi.

*1969-cu ildən bu günədək yarım əsrdən çox vaxt keçir. Azərbaycanın dövlətçilik tarixində qazanılmış ən böyük uğurlar məhz bu dövrdə olub. Bu isə o deməkdir ki, Azərbaycanın bir dövlət kimi mövcudiyyəti, inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Buna görə də ölkəmizdə Heydər Əliyev siyasi yolu davam etdirildikcə, Azərbaycan da inkişaf edəcək, daha da güclənəcək!*

**"Şərq qapısı"**

## Kollegiya iclası keçirilib

***İyunun 13-də Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış beşinci sessiyasında qarşıya qoyulan vəzifələrə və 2021-ci ilin birinci yarısında görülən işlərə həsr olunmuş kollegiya iclası keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov açaraq bildirib ki, ötən dövr ərzində müxtəlif məsələlərlə əlaqədar müşavirələr, tarla seminarları və maarifləndirmə tədbirləri keçirilmişdir.

Vurğulanıb ki, qəbul edilmiş Dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrası, məhsul istehsalçılarına güzəştli kreditlərin verilməsi, meliorasiya və irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, taxıl və soyuducu anbarların həcminin artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması muxtar respublikada kənd təsərrüfatının dinamik inkişafına səbəb olub.



Qeyd olunub ki, damazlıq və süni mayalanma işlərinin yenidən qurulması, onun bazasının möhkəmləndirilməsi, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması heyvandarlıq məhsullarının intensiv artmasına səbəb olub. Bunun nəticəsidir ki, göstərilən yüksək məhsuldar törədici toxumlar əvvəllər qonşu Türkiyə Respublikasından alınıb gətirilirdisə, hazırda yeni yaradılmış Süni Mayalanma Mərkəzində "Simmental" və "Holiştein-friz" cinsli törədicilərdən yüksəkkeyfiyyətli toxum alınaraq qablaşdırılır və digər süni mayalanma məntəqələri də bununla təmin edilir.

Bildirilib ki, ötən dövrdə toxumçuluq və bitkilərin mühafizəsi idarəsinin laboratoriyasında 148 ton kartof, 53 ton arpa, 3,5 ton müxtəlif ot, 60 ton qarğıdalı, 900 kiloqram günəbaxan, 160 kiloqram tərəvəz, 140 kiloqram bostan, 2 ton paxlalı toxum nümunələri götürülərək analiz olunmuş, torpaq mülkiyyətçilərinə nəticə aktı təqdim edilmişdir.

Bəhruz Bayramov qeyd edib ki, Dövlət Baytarlıq Xidməti tərəfindən mütəmadi olaraq mal-qara və quşlar arasında yayılan müxtəlif xəstəliklərə qarşı profilaktik peyvəndləmə və dezinfeksiya işləri aparılır, dövlət vəsaiti hesabına epizootiya əleyhinə bioloji təhlükəsizliyin qorunması məqsədilə ardıcıl tədbirlər görülür və arıçılara pulsuz dərman preparatları verilir. Belə ki, 2021-ci ilin birinci rübündə arıçılıqla məşğul olmaq istəyən sahibkarlara dövlət tərəfindən güzəştli şərtlərlə 110 min 800 manat kredit verilib. Görülən tədbirlər nəticəsində 2000-ci ildə mövcud olan 12 min 620 arı ailəsinin sayı 99 min 935-ə çatdırılıb.

Sonda məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## “Şərq qapısı” qəzeti və Naxçıvanda mətbuatın inkişafı” mövzusunda konfrans keçirilib



***AMEA Naxçıvan Bölməsində “Şərq qapısı” qəzeti və Naxçıvanda mətbuatın inkişafı” mövzusunda keçirilən konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.***

Akademik ümummilli lider Heydər Əliyevin Moskvadan Naxçıvana qayıtdıqdan sonra “Şərq qapısı”na verdiyi müsahibədə dediyi ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”*** fikirləri xatırladaraq bildirib ki, qəzet bütün dövrlərdə muxtar respublikada elm, təhsil, maarifçilik, ədəbiyyat sahəsində gedən inkişaf proseslərinin güzgüsünə çevrilib və bu gün də üzərinə düşən həmin vəzifəni layiqincə yerinə yetirir.

Qeyd olunub ki, elmi nailiyyətlərin, beynəlxalq əhəmiyyətli tədbirlərin, elmi tədqiqatların geniş oxucu kütləsinə çatdırılmasında mətbuatın əhəmiyyəti böyükdür. “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamın söz, qələm əhli ilə yanaşı, ziyalı fikrinə, elm adamlarına da verilən böyük önəm olduğunu diqqətə çatdıran İsmayıl Hacıyev elmə, təhsilə, ziyalılığa göstərdiyi yüksək diqqət və qayğıya görə konfrans iştirakçıları adından Ali Məclisin Sədrinə minnətdarlıq edib. “Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova AMEA Naxçıvan Bölməsinin Fəxri fərmanı ilə təltif olunub.

“Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova “Şərq qapısı” qəzeti milli müstəqillik və dövlətçilik ideyalarının yorulmaz təbliğatçısı kimi” mövzusunda çıxış edərək muxtar respublikanın aparıcı mətbuat orqanının keçdiyi tarixi inkişaf yoluna nəzər salıb. Bildirilib ki, tarixən Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən “Şərq qapısı” qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüşdür. 1990-1993-cü illərdə ulu öndərimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə qəzetin müstəqil mətbuat orqanı kimi formalaşması mərhələsinin əsası qoyulmuş, ulu öndər qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir.

Çıxışda muxtar respublikada baş verən ictimai-siyasi proseslərə, ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanaraq uğurla həyata keçirilən dövlətçilik siyasətinə, elm, təhsil, iqtisadiyyat və digər sahələrdə baş verən yeniliklərə mətbuat vasitəsilə ziyalılarımız, xüsusilə də AMEA Naxçıvan Bölməsinin əməkdaşları tərəfindən fəal mövqe bildirilməsindən, qəzetin elm, təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrindən bəhs edilib.

“Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymət kimi dəyərləndirən baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə Ali Məclis Sədrinə minnətdarlıq edib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov “Şərq qapısı” qəzetinin muxtar respublika mətbuatının inkişafında rolu” mövzusunda çıxış edərək bildirib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. Çıxışda muxtar respublikada mətbuatın maddi-texniki təchizatının, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində görülən tədbirlərdən danışılıb.

Rövşən Hüseynov “Şərq qapısı” qəzeti redaksiyasında yüksək səviyyəli, müasir tələblərə cavab verə biləcək qəzetin nəşri üçün müasir iş şəraiti yaradıldığından, 2012-ci ildən etibarən fəaliyyət göstərən, 2019-cu ildə yenilənən *www.serqqapisi.az* saytının dünyanın Naxçıvanla bağlı dəqiq informasiyanın dünyaya çatdırılmasındakı mühüm rolundan bəhs edib.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun professoru, filologiya elmləri doktoru Yusif Səfərov “Şərq qapısı” qəzetində folklorun nəşri və tədqiqi (1969-2020)”, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov “Yeni nəsil jurnalistlərin yetişməsində “Şərq qapısı” qəzetinin rolu”, Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şiraliyeva “Şərq qapısı” qəzetinin tarixi inkişaf yolu”, “Naxçıvan” Universitetinin kafedra müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nüşabə Məmmədova “Naxçıvan ədəbi mühitinin inkişafında “Şərq qapısı” qəzetinin rolu” mövzularında məruzə ediblər.

Sonda qəzet ilə yaxından əməkdaşlıq edən AMEA Naxçıvan Bölməsinin əməkdaşları filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərovaya və iqtisad üzrə fəlsəfə doktoru Eltun İbrahimova, Naxçıvan Müəllimlər İnstitutunun dosenti Qızıltac Şahbazovaya “Şərq qapısı” qəzetinin Fəxri fərmanı, digər elm adamları və ziyalılara yubiley hədiyyələri təqdim olunub.

✍ **Nail ƏSGƏROV**

## Zəka sahiblərimizin uğurlu Serbiya səfəri

***Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirmələri Serbiya Respublikasında təşkil olunan beynəlxalq turnirlərdə mübarizə aparıb və uğurlu nəticələr əldə ediblər.***



İlk olaraq 5 zəka sahibimiz Silver Leyk şəhərində təşkil olunan “Silver Lake – 2021 Open” beynəlxalq turnirində mübarizə aparıblar. Beynəlxalq turnir “A” və “B” olmaqla, iki qrupa bölünüb. 27 ölkədən 130-dan çox şahmatçının mübarizə apardığı “A” qrupunda iki təmsilçimiz – beynəlxalq usta Toğrul Həsənzadə və FIDE ustası Pərviz Qasımov müvafiq olaraq turnirdə 4 və 5 xal toplamaqla uğurlu nəticə əldə ediblər. 11 ölkənin 100-dən çox zəka sahibinin birincilik uğrunda mübarizə apardığı “B” qrupunda isə Nəsrin Babayeva 9 oyundan 5,5 xal toplayaraq qızlar arasında qalib adını qazanıb. Yekun turnir cədvəlində ilk üçlükdən cəmi yarım xalla kənarda qalan Sadiq Qarayev isə 18 yaşadək şahmatçılar arasında ikinci olub. Aktivində 5 xalı olan Nazlı Hümbətova reytinq əmsalını 171 xal artırıb.

Şahmatçılarımız, eyni zamanda 2-8 iyul tarixlərdə Serbiyanın paytaxtı Belqrad şəhərində təşkil olunan 1-ci Beynəlxalq “Serbia Chess Open 2021” şahmat turnirində də mübarizə aparıblar. 42 ölkədən 461 şahmatçının iştirak etdiyi turnir “Masters” və “Amateurs” olmaqla, iki qrupda keçirilib. “Masters” qrupunda mübarizə aparan FIDE ustası Pərviz Qasımov uğurlu nəticə əldə edərək Beynəlxalq usta normasını doldurub. Bu qrupda iştirak edən digər təmsilçimiz beynəlxalq usta Toğrul Həsənzadə turniri 3 xalla başa vurub.

“Amateurs” qrupunda 6 xal toplayan Sadiq Qarayev reytinq əmsalına 52,4, digər şahmatçımız – 4,5 xal toplayan Nazlı Hümbətova isə 63,2 xal əlavə ediblər. Nəsrin Babayeva isə beynəlxalq turnirdə 5 xal toplayıb.

✍ **Ceyhun MƏMMƏDOV**

## Növbəti *“STEAM yay məktəbi”*nə start verildi



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” 2021-ci il 7 iyun tarixli Sərəncamının icrası istiqamətində görülən tədbirlər çərçivəsində Ağbulaq İstirahət Mərkəzində növbəti “STEAM yay məktəbi” təşkil olunub.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Ovni Muradov bu münasibətlə keçirilən tədbirdə ümumtəhsil məktəblərində STEAM təhsil metodunun tətbiqinin əhəmiyyətindən danışıb. Bildirilib ki, şagirdlərin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün “STEAM yay məktəbi” təşkil olunur.

Qeyd edək ki, “Yay məktəbi” iyulun 16-dək davam edəcəkdir. “Yay məktəbi”ndə şagirdlər STEAM düşüncəsi və metodikası, XXI əsr bacarıqları, fənlərarası əlaqə, layihə əsaslı öyrənmə, innovativ təlim metodikaları kimi istiqamətlərdə məlumatlarla tanış olacaqlar. Proqram əsasında şagirdlərə micro:bit vasitəsilə kodlama, müxtəlif mühəndis-dizayn həllərinin prototipləşdirilməsi və digər bu kimi istiqamətlərdə praktik biliklər veriləcəkdir. Təlimi uğurla başa vuran şagirdlər Təhsil Nazirliyi tərəfindən “STEAM yay məktəbi”ndə iştirak etdiklərinə görə sertifikatla təmin ediləcəklər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Əmək yarmarkası olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası iyul ayının 13-də Sədərək rayonunda keçirilib. Əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 9 müəssisədən 78 boş iş yeri təqdim olunub. Qeyd edək ki, əmək yarmarkalarında 11 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin edilib, 3 nəfərin peşə hazırlığı kurslarına, 15 nəfərin isə özünüməşğulluğa cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

Növbəti əmək yarmarkası iyul ayının 14-də Şərur rayonunda keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Bostan məhsullarının keyfiyyət göstəriciləri mütəmadi olaraq nəzarətdə saxlanılır

Qarpız isti havaların ən sevimli məhsullarından sayılır. Ona görə də bazara qarpız çıxan kimi çoxumuz bu bostan məhsulundan alıb dadmaq istəyirik. Məhsulun vaxtından tez yetişməsi onun keyfiyyətinin pis olması demək deyil. Burada əsas diqqət yetirilməli məqam qarpızın yetişdirilməsində gübrələrdən və pestisidlərdən düzgün istifadə edilməsidir. Gübrə növləri və pestisidlər vaxtında və düzgün tətbiq edilməyəndə məhsulun böyüməsinə və məhsuldarlığına səmərəli təsir göstərmir. Məhsulun tərkibində nitrat, nitrit və yaxud pestisid qalıqlarının miqdarının çox toplanması qarpızın keyfiyyətinin pisləşməsinə, hətta zəhərlənmələrə belə, səbəb ola bilər. Qarpızda nitratların norması 60 milliqram/kiloqram, qovunda isə 90 milliqram/kiloqram olmalıdır.

Zəhərlənməmək üçün qarpızın istehlakı zamanı bir sıra məsələlərə diqqət etmək lazımdır. İstehlakçıların nəzərinə çatdırmaq istərdik ki, qarpız kəsildikdə içərisindəki kütlənin yumşaq, damarlarının qabarıq gözəçarpan şəkildə olması nitratın miqdarının normadan artıq olmasının göstəricisidir.



Kəsiləndən sonra qarpızın düzgün qaydada saxlanmasına riayət edilməlidir. Ümumiyyətlə, qarpız və yemişin kəsilən gün istehlak olunması məsləhətdir. Kəsildikdən sonra qarpızı 1 sutkadan artıq saxlamaq düzgün deyil. Kəsilmiş qarpız bir neçə gün qalarsa, onda çoxlu patogen mikroflora əmələ gəlir. Kəsildikdən sonra soyuducuda müvafiq rejimdə saxlanmasına əməl edilməlidir. Bütöv qarpızın 10-15° C, xırda hissələrə doğranmış qarpızın isə ağzı kip qapaqlı qablarda +5° C temperaturda saxlanması məsləhət görülür. Eyni zamanda kəsilmiş qarpızın üzəri qida üçün nəzərdə tutulan plastik örtüklə kip örtülərək, soyuducunun meyvə-tərəvəz üçün nəzərdə tutulan bölümündə saxlanmalıdır. Kəsilmiş qarpız növbəti günə qaldıqda isə mütləq şəkildə həmin hissənin üst səthi nazik qat şəklində kəsilib kənarlaşdırılmalıdır.

Qarpız alarkən onun rənginə, bərkliyinə, ölçüsünə, saplağına fikir verilməlidir. Qarpızın üzərində açıq sarımtıl-yaşıl və tünd-yaşıl rəngdə olan zolaqlar, əsasən, bərabər ölçüdə olmalı və sərhədlərlə ayrılmalıdır. Üzərində müşahidə olunan sarı ləkələr isə onun torpaqla təmas etdiyi yerlərdir. Qabığının hamar, səthinin parlaq olması qarpızın yetişməsinin, rənginin solğunluğu isə məhsulun köhnə olduğunu göstərir. Saplağının yaşıl rəngli olması qarpızın hələ tam yetişmədiyini göstərir. Yetişmiş qarpızın saplağı qurumuş, rəngi isə dəyişmiş olmalıdır. Ölçüsü nə kiçik, nə də böyük olmamalı, orta ölçüdə olan qarpız seçilməli və ələ aldıqda ağır gəlməlidir. Qarpızın üzərində çürümə əlamətləri və çatlar olmamalıdır. Yerdən 20 santimetr hündürlükdə olan piştaxtaların üzərində satılan qarpızlara üstünlük verilməlidir. Kəsilmiş, doğranmış qarpızları almaq və ya satış yerində kəsdirmək məsləhət deyil. Qarpızı əvvəl yaxşı yumaq, təmiz və quru bıçaqla kəsmək vacibdir.

Qeyd edək ki, daxili bazarı keyfiyyətsiz məhsullardan qorumaq məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən bostan bitkilərinin keyfiyyətinə nəzarət mütəmadi olaraq nəzarət edilir. 2021-ci ilin ötən dövrü ərzində cəmiyyət tərəfindən bostan məhsullarından 24 halda səyyar olmaqla, ümumilikdə, 33 halda orta nümunələr götürülərək laboratoriyada ekspertizadan keçirilmişdir. Aparılan laboratoriya müayinələri zamanı məhsulların keyfiyyət və təhlükəsizlik göstəriciləri normativ-texniki sənədlərin tələblərinə uyğun olmuşdur.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Şahbuz rayonu, Şahbuz şəhərində yaşamış Əliyev Həsənqulu Əli oğlunun adına verilmiş 53 inventar nömrəli evin texniki pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 561**